# ƏLİYEV VASİLİ ƏHMƏD OĞLU



Əliyev Vasili Əhməd oğlu 15 yanvar 1959-cu ildə Qubadlı rayonunda doğulmuşdur. 1966-cı ildə birinci sinfə getmiş, 1976-cı ildə orta təhsilini başa vurmuşdur. 1977-ci ildə Qubadlı rayon Hərbi Komissarlığı tərəfindən orduya çağırılmışdır. Daxili qoşunlarda xidmət etməsi Vasilinin polisə həvəsini daha da artırır. Ordudan tərxis olunduqdan sonra onu mühafizə bölməsinə gözətçi, 1980-ci ildə isə rayon Daxili İşlər Şöbəsinə polis nəfəri kimi işə qəbul edirlər. Əla xidmətinə görə Daxili İşlər Nazirliyi onu "Polis əlaçısı" döş nişanı ilə təltif etmişdi. O, 1988-ci ildən başlayaraq tez-tez döyüş meydanlarında olur, əhalinin təhlükəsizliyinin təmin edilməsində fədakarlıq göstərirdi. 1989-cu ildə Qafan rayonunun Novruzlar kəndi yaxınlığındakı yüksəklikdə qurulmuş düşmən toplarının məhv edilməsində göstərdiyi qəhrəmanlıq onun şöhrətini hər yana yaydı. V.Əliyev öz dəstəsi ilə Seytas, Novlu və Yuxarı Cibikli kəndlərinin müdafiəsində də mərdliklə vuruşmuş, döyüş yoldaşlarının mühasirədən çıxarılmasında fədakarlıq göstərmişdi. 1992-ci il oktyabrın 19-u hərbçilərlə birlikdə polis işçiləri də Qaraqaya yüksəkliyi uğrunda döyüşə başladılar. Döyüş uğurla başa çatdı. Qələbədən ruhlanan döyüşçülər oktyabrın 20-də Topağac yüksəkliyini azad etmək üçün hücuma keçdilər. Vasili öz dəstəsi ilə düşmən arxasına keçərkən mühasirəyə düşdü. Onlar düşmənin xeyli canlı qüvvəsini məhv etsələr də, qeyri-bərabər döyüşdə qəhrəmancasına həlak oldular. Qubadlı rayonunun Şəhidlər xiyabanında dəfn edilmişdir. Ailəli idi. İki övladı var. Azərbaycan Respublikası prezidentinin 11 may 1993-cü il tarixli 599 saylı fərmanı ilə Vasili Əhməd oğlu Əliyevə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir. Qubadlı rayon Mədəniyyət evi və Diləli-Müskanlı kənd orta məktəbi qəhrəmanın adını daşıyır.